**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 204**

**Bakı şəhəri, 2 may 2019-cu il**

**“Peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası”nın təsdiq edilməsi haqqında**

“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi və “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 iyun tarixli 105 nömrəli Fərmanının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “Peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **Novruz Məmmədov**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 204 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

## Peşəkar mühasib təşkilatının akkreditasiya olunması

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi və “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 iyun tarixli 105 nömrəli Fərmanının 1.5-ci bəndinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasında peşəkar mühasib təşkilatının akkreditasiya olunması qaydasını müəyyən edir.

1.2. Bu Qayda “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən peşəkar mühasib təşkilatı kimi akkreditasiya olunması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə (bundan sonra – Maliyyə Nazirliyi) müraciət edən qeyri-kommersiya təşkilatlarına şamil edilir.

1.3. Qeyri-kommersiya təşkilatı peşəkar mühasib təşkilatı kimi akkreditasiya olunmaq üçün mühasibat uçotu sahəsində aşağıdakı istiqamətlərdən hər hansı biri üzrə ən azı beş il fəaliyyət göstərməlidir:

1.3.1. beynəlxalq standartların tətbiqi və ya tərcüməsi üzrə xidmət göstərilməsi;

1.3.2. əlavə təhsil üzrə lisenziyası olmaqla, beynəlxalq standartlar üzrə müvafiq təlim və (və ya) imtahanların keçirilməsi.

1.4. Peşəkar mühasib təşkilatı kimi akkreditasiya olunmuş qeyri-kommersiya təşkilatlarının siyahısı Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilir.

### 2. Akkreditasiyanın keçirilməsi

2.1. Qeyri-kommersiya təşkilatı peşəkar mühasib təşkilatı kimi akkreditasiya olunması üçün Maliyyə Nazirliyinə bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun tərtib edilmiş ərizə ilə müraciət edir. Həmin ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

2.1.1. nizamnaməsinin, vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin və dövlət vergi orqanında qeydiyyata alınmasını təsdiq edən sənədinin notarial qaydada təsdiq edilmiş surətləri;

2.1.2. bu Qaydanın 2.7-ci bəndinin tələbləri nəzərə alınmaqla, 2 nömrəli əlavəyə uyğun olaraq ən azı 500 (fiziki və hüquqi şəxs) üzvünün və ya 200 peşəkar mühasib sertifikatına malik olan üzvünün olması barədə məlumat forması;

2.1.3. bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun olaraq aşağıdakı struktur bölmələrə malik olmasını təsdiq edən məlumat forması və ona əlavə edilmiş təsdiqedici sənədlərin surəti:

2.1.3.1. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və (və ya) İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə struktur bölmə;

2.1.3.2. mühasiblərin ixtisaslarının artırılması üzrə struktur bölmə;

2.1.3.3. üzvlüklə bağlı yaranmış mübahisələrin baxılması üzrə struktur bölmə və ya müvafiq vəzifə;

2.1.4. üzvlərinin ixtisaslarının artırılması ilə əlaqədar təlimlərin keçirilməsi planına malik olmasını təsdiq edən sənədin surəti;

2.1.5. bu Qaydanın 1.3-cü bəndində göstərilən istiqamətlərdən biri və ya bir neçəsi üzrə ən azı beş il fəaliyyət göstərməsini təsdiq edən sənədlərin surəti.

2.2. Qeyri-kommersiya təşkilatının müraciətinə “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq baxılır və ərizəçinin akkreditasiyadan keçib-keçməməsi barədə Maliyyə Nazirliyi tərəfindən müvafiq qərar qəbul edilir.

2.3. Peşəkar mühasib təşkilatı müddətsiz akkreditasiya olunur. Peşəkar mühasib təşkilatının akkreditasiya olunması barədə Maliyyə Nazirliyinin qərarının qüvvəyə mindiyi tarix təşkilatın akkreditasiya olunma tarixi hesab edilir.

2.4. Qeyri-kommersiya təşkilatı tərəfindən təqdim edilmiş sənədlər bu Qaydanın 2.1-ci bəndinin tələblərinə cavab vermədiyi hallarda həmin təşkilatın akkreditasiyadan keçmədiyi barədə qərar qəbul edilir və səbəbi göstərilməklə qərarın surəti qeyri-kommersiya təşkilatına göndərilir.

2.5. Akkreditasiyadan keçə bilməyən qeyri-kommersiya təşkilatları təkrar müraciət etmək hüququna malikdirlər.

2.6. Peşəkar mühasib təşkilatı hər il üçün növbəti il yanvar ayının 31-dək bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun olaraq üzvlərinin sayı barədə Maliyyə Nazirliyinə məlumat təqdim edir.

2.7. 2022-ci il 31 dekabr tarixinədək akkreditasiya olunmuş peşəkar mühasib təşkilatının 2023-cü ilin 31 dekabr tarixinədək ən azı 200 peşəkar mühasib sertifikatına malik olan üzvü olmalıdır. 2022-ci il 31 dekabr tarixindən sonra akkreditasiya olunmuş peşəkar mühasib təşkilatının akkreditasiya olunduğu tarixdən bir il ərzində ən azı 200 peşəkar mühasib sertifikatına malik olan üzvü olmalıdır.

2.8. Peşəkar mühasib təşkilatının adı və hüquqi ünvanı dəyişdirildiyi hallarda, həmin təşkilat on beş təqvim günü müddətində peşəkar mühasib təşkilatı kimi akkreditasiya olunmuş qeyri-kommersiya təşkilatlarının siyahısında müvafiq dəyişiklik edilməsi məqsədilə Maliyyə Nazirliyinə yeni adı və hüquqi ünvanı barədə məlumat təqdim edir (təsdiqedici sənədin surəti əlavə olunmaqla). Maliyyə Nazirliyi tərəfindən beş iş günündən gec olmayaraq, peşəkar mühasib təşkilatı kimi akkreditasiya olunmuş qeyri-kommersiya təşkilatlarının siyahısında müvafiq dəyişiklik edilir.

## 3. Peşəkar mühasib təşkilatının akkreditasiyasının dayandırılması və ləğv edilməsi

3.1. Peşəkar mühasib təşkilatının akkreditasiyasının dayandırılması Maliyyə Nazirliyinin qərarı əsasında aşağıdakı hallarda həyata keçirilir:

3.1.1. peşəkar mühasib təşkilatı tərəfindən onun akkreditasiyasının dayandırılması barədə müvafiq ərizə təqdim edildikdə;

3.1.2. peşəkar mühasib təşkilatı tərəfindən bu Qaydanın 2.6-cı bəndində nəzərdə tutulmuş məlumatların təqdim edilməməsi və ya düzgün olmayan məlumatların təqdim edilməsi aşkar olunduqda;

3.1.3. peşəkar mühasib təşkilatı tərəfindən bu Qaydanın 2.7-ci bəndinin tələbləri təmin edilmədikdə;

3.1.4. peşəkar mühasib təşkilatı tərəfindən bu Qaydanın 2.1.3-cü və 2.1.4-cü yarımbəndlərinin tələblərinin pozulduğu aşkar edildikdə.

3.2. Peşəkar mühasib təşkilatının akkreditasiyasının ləğv edilməsi Maliyyə Nazirliyinin qərarı əsasında aşağıdakı hallarda həyata keçirilir:

3.2.1. peşəkar mühasib təşkilatı tərəfindən onun akkreditasiyasının ləğv edilməsi barədə müvafiq ərizə təqdim edildikdə;

3.2.2. peşəkar mühasib təşkilatı tərəfindən bu Qaydanın 3.1.2-ci, 3.1.3-cü və 3.1.4-cü yarımbəndlərinin tələblərinə uyğun olaraq akkreditasiya olunmasının dayandırılmasına səbəb olan pozuntular üç ay müddətində aradan qaldırılmadıqda;

3.2.3. peşəkar mühasib təşkilatı kimi akkreditasiya olunmuş qeyri-kommersiya təşkilatı ləğv edildikdə və ya yenidən təşkil olunduqda.

3.3. Peşəkar mühasib təşkilatının akkreditasiyasının dayandırılması və ya ləğv edilməsi barədə Maliyyə Nazirliyinin qərarının qüvvəyə mindiyi tarix təşkilatın akkreditasiyasının dayandırılması və ya ləğv olunması tarixi hesab edilir.

3.4. Peşəkar mühasib təşkilatı onun akkreditasiyasının dayandırılması və ya ləğv edilməsi barədə Maliyyə Nazirliyinin qərarından "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada şikayət etmək hüququna malikdir.

---

**“Peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası”na**

**1 nömrəli əlavə**

**Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə**

______________________________
**(təşkilatın adı)**

**tərəfindən**

# ƏRİZƏ

**Təşkilatımızın peşəkar mühasib təşkilatı kimi akkreditasiya olunmasını sizdən xahiş edirik.**

**Hüquqi ünvanı** ______________________________________________

**Faktiki ünvanı** ______________________________________________

**Təşkilatın rəhbəri** ______________________________________________
(imza, soyadı, adı, atasının adı)

**M.Y.** ______________________________
(tarix)

“**Peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası”na**

**2 nömrəli əlavə**

# MƏLUMAT

______________________________________________________________________________
(qeyri-kommersiya təşkilatının tam adı)

Təşkilatın fiziki şəxs olan üzvlərinin sayı ______________________________

Təşkilatın hüquqi şəxs olan üzvlərinin sayı ______________________________

Təşkilatın “Peşəkar mühasib sertifikatı” almış üzvlərinin sayı ____________________________

## Fiziki şəxslər barədə məlumat cədvəli

| Sıra №-si | Soyadı | Adı | Atasının adı | İşlədiyi təşkilatın adı | Vəzifəsi | İş stajı | Qeydiyyat ünvanı | Əlaqə telefonu | Elektron poçt ünvanı | Peşəkar mühasib sertifikatının nömrəsi | Peşəkar mühasib sertifikatının tarixi | Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi | Üzvlük biletinin və ya sənədinin nömrəsi | Üzvlük biletinin və ya sənədinin tarixi (üzvlüyə qəbul edildiyi tarix) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |

**Qeyd.** İşləməyən və (və ya) peşəkar mühasib sertifikatı olmayan şəxslər barədə 5-ci , 6-cı, 7-ci, 11-ci və 12-ci sütunlardan uyğun olmayanı doldurulmaya bilər.

## Hüquqi şəxslər barədə məlumat

| Sıra №-si | Hüquqi şəxsin (təşkilatın) | | | | | Hüquqi şəxsin (təşkilatın) rəhbərinin | | Üzvlük biletinin və ya sənədinin | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | adı | hüquqi ünvanı | faktiki ünvanı | əlaqə telefonu | elektron poçt ünvanı | soyadı, adı, atasının adı | vəzifəsi | nömrəsi | tarixi (üzvlüyə qəbul edildiyi tarix) |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

**Təşkilatın rəhbəri** ______________________________________________

(imza, soyadı, adı, atasının adı)

**M.Y.** ______________________________

(tarix)

**“Peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası”na**

**3 nömrəli əlavə**

## Təşkilatın malik olduğu struktur bölmələr haqqında məlumat

| Sıra №-si | Struktur bölmənin (struktur bölmə olmadıqda müvafiq vəzifənin) adı | Struktur bölmənin rəhbərinin (struktur bölmə olmadıqda müvafiq vəzifəni tutan şəxsin) | | |
|---|---|---|---|---|
| | | vəzifəsi | soyadı, adı və atasının adı | əlaqə nömrəsi |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Təşkilatın rəhbəri** ______________________________
(imza, soyadı, adı, atasının adı)

**M.Y.** ____________________
(tarix)

______________